20 fevral 2024-cü il Azərbaycan, № 38.- S.13. RƏSMİ DÖVLƏT QƏZETİ

# Prezident seçkilərindəki xalq həmrəyliyi gələcək uğurlarımızın qarantıdır

7 fevral prezident seçkiləri Azərbaycan xalqının tarixinə Zəfər seçkisi kimi yazıldı. Bu seçkilərin əsas əhəmiyyəti o idi ki, müstəqillik dövründə ilk dəfə ölkəmizin bütün ərazilərində keçirildi. Bu seçkiləri fərqləndirən digər bir hadisə isə ölkə rəhbərinin ailə üzvləri ilə birgə Xankəndidə səs verməsi oldu. Bu, ölkə tarixində əbədi qalacaq əlamətdar hadisə idi.

Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri ölkə tarixində mühüm bir dövrə yekun vurdu. Cənab İlham Əliyev 2003-cü ildə ilk dəfə Azərbaycanın Prezidenti seçiləndə xalqı əmin etmişdi ki, ölkənin qarşısında duran bütün vacib vəzifələri icra edəcək. Bəli, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi, üçrəngli bayrağımız Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda dalğalandırıldı, suverenliyimiz tam bərpa olundu.

Ötən 20 illik tarixə nəzər saldıqda görürük ki, ötən dövr uğurlarla, qələbələrlə zəngin olub. Sözsüz ki, əldə edilən bu uğur və qələbələri şərtləndirən əsas amillərdən biri Azərbaycan xalqının həmrəyliyidir. Ötən zamanda bütün çətinliklərə və problemlərə rəğmən, Azərbaycan xalqı bir yumruq kimi birləşərək inkişaf və tərəqqi yolu ilə addımlayıb. İkinci Qarabağ müharibəsindəki qələbə isə bu yolun ən şərəfli və qürurlu ünvanıdır.



Prezident İlham Əliyev fevral ayının 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində etdiyi geniş nitqi ilə qarşıda duran hədəfləri, prioritetləri açıqlamış, ölkəmiz üçün yeni dövrün başlandığını elan etmişdir. Dövlət başçısı vurğulamışdır ki, bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq: "Yeni dövrə böyük ümidlərlə qədəm qoyuruq, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun".

Növbəti illər qarşıda duran əsas vəzifələrdən biri Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atılıb və nəticədə bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür.

Yeni dövrün əsas hədəflərindən biri də Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa işləri həyata keçirilir. Ermənilərin 30 il ərzində dağıdıb viran qoyduqları ərazilər sürətlə yenidən qurulur. Müasir tələblər səviyyəsində bərpa edilən yaşayış məntəqələrində həyat yenidən canlanır.

Yeni reallıqlarla əlaqədar sərhədlərimizin təhlükəsizliyinin gücləndirilməsi, sərhəd infrastrukturunun yaradılması məsələləri də prioritet hesab olunur. Bu mənada cəmiyyətimizin xaricdən gələn ideoloji basqılara davamlılığının artırılması üçün ideoloji bütövlüyün, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasının mühüm əhəmiyyəti var.

Son illərin uğurlarına nəzər salaraq əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız qarşıdakı dövrün hədəflərinə də uğurla çatacaq.

*Niyazi BAYRAMOV,*
*Gəncə Şəhər İcra*
*Hakimiyyətinin başçısı*